UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.3.207

İMRAN KƏRİMOV *

# AZƏRBAYCANIN BƏDİİ KERAMİKASINDA ELEMENTLƏRİN SEMANTİK MƏNALARI

*Azərbaycanın bədii keramika sənəti uzun bir tarixi inkişaf yolunu keçərək, zəngin estetik və mədəni dəyərləri özündə cəmləyir. Bu sənət növü, insanların gündəlik həyatı və inanclarını ifadə etməklə yanaşı, cəmiyyətin estetik təsəvvürlərinin formalaşmasına da təsir edib. Əsrlər boyu keramika sənətinin bəzək motivləri inkişaf edərək mürəkkəb quruluşlu və estetik xüsusiyyətlərə malik olub. İbtidai dövrlərdə keramika məmulatları çox vaxt inanc və simvolizmlə əlaqəli olub. Məsələn, zoomorf elementli dulus qabları, qədim insanların animist və totemistik inanc dünyasını əks etdirir. İslamın Azərbaycanda yayılması, xalqın mənəvi və mədəni inkişafına yeni təkan verdi. Bu dövrdə, simvollar və ornamentlər daha da zənginləşərək, həm dini inanclara, həm də həyat tərzinə söykənən yeni formalar meydana gəldi. Azərbaycanın qədim rəmzləri, xüsusilə sakral xarakterli naxışlar, ilkin inanç sistemlərinin və mifik düşüncələrin əks olunmasına xidmət edirdi. Azərbaycanın bədii keramika sənətində ənənəvi üslub və stilizasiya olunan nəbati, geometrik naxışlar geniş yayılmışdır. Şirli saxsı qablar, rənglərin və naxışların harmoniyası ilə seçilərək, yüksək sənətkarlıq nümunələri təqdim edir. Bu keramika nümunələri, yalnız estetik dəyəri ilə deyil, həm də Azərbaycan xalqının dini inancları, həyat tərzi və sosial münasibətləri haqqında dəyərli məlumatlar verir.*

***Açar sözlər:*** *Keramika, svastika, fəlsəfi, texnologiya, bədii, semantika.*

## Giriş

Azərbaycanın bədii keramika sənətinin üzərində aparılan elmi araştırmalar göstərir ki, bu sənət növü uzun bir tarixi inkişaf yolu keçmişdir. Cəmiyyətdə ümumi estetik təsəvvürlərin formalaşması keramik məmulatda da tədricən dekorativ xüsusiyyətlərin artmasına gətirib çıxarmışdır. Sadə həndəsi və nəbati motivlər mürəkkəb qurluşlu bəzək sistemlərinə çevrilmişdir.

Bədii mədəniyyətimizin zəngin tarixi əsrlər boyu formalaşmış keramika sənətində öz əksini tapmışdır. Qafqaz Albaniyasının bədii keramika məmulatı, şirli saxsı qabları, kaşı sənəti bədii irsimizin zənginliyindən xəbər verməklə yanaşı, tarixmizin keçdiyi inkişaf yolunun da əyani göstəriciləridir.

İbtidai dövrdə zoomorf elementli dulus qabların meydana gəlməsi qədim insanlarda tatomistik və animastik düşüncələrin yaranması ilə əlaqədardır. Bu məmulatların inanc təyinatlı olması həmin qabların qəbir invertarında rast gəlməsi ilə izah olunur.

## Əsas təhlil

Tunc və dəmir dövrü keramikası özündən əvvəlki dövrün varisliyi əsasında formalaşaraq, ayrıca istiqamətini boyalı qablar mədəniyyəti təşkil edir. Boyalı keramika bədii dekorun yeni imkanlarını və axtarişlarını nümayiş etdirir. Bu dövrün bədii keramikasında tətbiq olunan bir çox üsul və motivlər Ön Asiya, Yaxın Şərq sivilzasiyaları ilə bədii-texnoloji əlaqələrin, təmasın olmasını sübut edir.

İslam dininin yaranması və Azərbaycanda yayılması xalqımızın mənəvi-mədəni inkişafına təkan verdi. İslama qədərki mədəniyyətin məzmunu dəyişəcək yeni keyfiyyət oldu. Azərbaycan mədəniyyəti ümumislam mədəniyyəti ilə qovuşaraq otaq mədəniyyəti yarandı.

Məlumdur ki, Azərbaycanda simvol, ornament, damğalar təkcə özünün qədimliyi ilə deyil, həm də inanclara mifik təfəkkürə, yaşam tərzinə, dövlətçilik ənənələrinə söykənən semantikası ilə fərqlənir.

Azərbaycanın qədim işarələrinin böyük hissəsini sakral xarakterli rəmzlər və naxışlar təşkil edir. Bu rəmzlər inanclarından, tanrıçılıq dinindən, ibtidai təsəvvürlərdən əks etdirən simvolardır.

Qədim ornamentlərin ilk nümunəsinə Pololit dövrünə aid qayaüstü təsvirlərdə, arxeoloji qazıntılar zamanı əldə olunan keramika məmulatları, sümük və daş bəzək əşyaları və s. üzərində rast gəlinir.

Neolit dövrünün mədəniyyətində onlar yeni üsullar, texnika və tətbiq sahələri ilə təkmilləşmiş, mahiyyət və dini inanclara bağlılıqlarını daha da möhkəmləndirmişlər. Təhlillər

göstərir ki, bu gün dekorativ tətbiqi sənətində milli ornamentlər kimi tanıdığımız etnik tərtibat elementlərinin bir çoxunun semantikasında məhz bu əcdadlarımızın ən qədim simvolar, ibtidai naxış, damğa və rəmzlər, müxtəlif kodlaştırılıb ötürdükləri informasiya daşımaqdadır.

Azərbaycanın maddi-mədəni irs nümunələri, zəngin etnoqrafiya materialları, xüsusilə milli ornamentlər bu gün təkcə tarixşünaslıq baxımdan deyil, xalqımızın etnomədəniyyətinin, etnogenin, tarixinin, inanclarının, mifoloji baxışlarının onun etnocoğrafi məkanın öyrədilməsinin dövlətçilik ənənələrinin və s. üçün də müstəsna əhəmiyyətə malikdir.

İlk dövrdə sadə xarakter daşıyan nişanlar zaman keçdikcə ilkin semantikasını itirmiş, Azərbaycan dekorativ sənətində kriptoqram ənənələrinin əsasını qoymuşdur.

Azərbaycanın müxtəlif damğa, rəmzlərinin və onların yüzlərlən növlərinə qədim, orta əsr və müasir tətbiqi sənət nümunələrində rast gəlmək mümkündür.

Elmi ədəbiyyatda svastika rəsminin meydana gəlməsi və semantikası haqqında müxtəlif fikirlər mövcuddur. Bu rəmzi rəsmə aid materiallarla, fikirlərlə ətraflı tanış olduqdan sonra bizdə belə bir təsəvvür yaranmışdır ki, svastika hərəkətdə olan insanın timsalında Günəşin sxematik simvolundan başqa bir şey deyildir. Bəzi tarixi və arxeoloji materiallara müraciət etməklə fikrimizi müdafiə etmiş olarıq.

Belə ki, doğrudur, yuxarıda qeyd etdiyimiz kimi svastikanın günəş simvolu olması haqqında bir çox tədqiqatçılar bəhs etmişlər. Amma, onlar öz fikirlərini sübut etməyə çalışmamış və eyni sözləri – svastikanın günəş simvolu olması haqqındakı sözləri təkrarlamaqla kifayətlənmişlər. Lakin, bu ideyanı sübut etmək üçün ilk növbədə svastika rəsminin – svastikanın hansı yolla əmələ gəlməsini aydınlaşdırmaq lazım deyilmi? Bizcə, bu işarənin yaranma prosesi təxminən aşağıdakı kimi getmişdir. Qədim insanlar günəşi müqəddəs bir varlıq kimi təsvir etməyə başladıqları ilk çağlarda onun real görünüşünün rəsmini çəkmişlər. Zaman keçdikcə, dini dünyagörüşdə dəyişikliklərlə bağlı olaraq bu təsvirlər sxematik formaya düşür. Günəşin özünü bildirən dairə tədricən ortadan çıxır. Onun şüalarından, hərəkətin istiqamətini bildirən (bəzən hərəkətin istiqaməti əksinə də ola bilərdi) yalnız dördü isə indi bizim svastika adlandırdığımız görünüşə malik olur. Bu prosesin sonunda əmələ gələn svastika günəş təsvirindən daha çox insan fiqurunu xatırladır. Savastikanın yaranmasında iştirak edən günəş təsvirlərinin bütün formalarına Azərbaycanın maddi mədəniyyət abidələrində müxtəlif variantlarda rast gəlinir. İlk olaraq, dairə və ondan yanlara ayrılan xətlərdən ibarət olur. Əvvəlcə, yanlara ayrılan xətlər düz təsvir olunur, sonra soldan sağa – saat əqrəbi istiqamətində daha maili, bundan sonra xətlər həm az, həm də nisbətən az maili olurlar. Növbəti mərhələdə kiçik dairədən saat əqrəbi istiqamətində "hərəkət edən" dörd xətt ayrılır. Bundan sonra isə svastika təsvirləri sadəcə biri – biri ilə kəsişən və əvvəlki istiqamətdə hərəkər edən dörd xətdən ibarət olur.

Lakin, onu da qeyd etmək lazımdır ki, svastikadan əlavə günəşin başqa rəmzi formaları da vardır ki, onların da əmələgəlmə prosesi tamam başqa istiqamətdə getmişdir. Belə ki, Xanlar rayonu ərazisindəki kurqanlardan aşkar olunmuş son tunc dövrünə (e. ə. XIII – XII əsrlərə) aid olan bəzi saxsı qablar üzərində sxematik ov səhnələri təsvir olunmuşdur. Rəsmlərin hamısında ovçunun başı üzərində günəşin real təsvirləri verildiyi halda bir yerdə onun başının üstündəki günəş svastika ilə əvəz edilmişdir (3, 15). Buradan da svastikanın günəş simvolu kimi istifadə edildiyi bir daha sübut olunur.

Əgər qonşu ərazilərə və digər tarixi mənbələrə nəzər salsaq, Qədim Şərq ölkələrində də geniş yayılmış inamlardan birinin Günəşə pərəstiş olduğunu görərik. Həmin dövrlərdə günəşi real və rəmzi formalarla yanaşı müxtəlif heyvanların timsalında da təsvir etmişlər. Tunc və ilk dəmir dövrü insanları sitayiş etdikləri günəşi öküz, maral, qoyun, at və bir neçe başqa heyvanın timsalında təsvir etmişlər (2, 76). Belə bir hal günəşin həyatiliyini, fəaliyyətini əks etdirməklə yanaşı, həm də günəşpərəstliyə qədərki totemizmin qalıqları ilə sıx surətdə bağlı olmuşdur. Günəşin svastika – insanın sxematik formasından ibarət təsviri isə birbaşa insan həyatı, onun fəaliyyəti ilə bağlı olduğundan günəşi daha canlı, daha mənalı ifadə etmişdilər. Bəlkə də, qədim insanlar bununla, eyni zamanda günəşin insan həyatında mühüm əhəmiyyətə malik olmasını dərk etdiklərini bildirməyə çalışmışlar.

Başqa bir tədqiqatçı S.H.Aşurov isə Naxçıvanın ilk tunc dövrü keramikası üzərində təsadüf olunan spiralvari naxışların sadədən mürəkkəbə doğru inkişaf dinamikasını izləməklə belə bir nəticəyə gəlmişdir ki, onlar buynuzlu heyvanın – qoçun simvolik işarəsidir (1, 71- 72). Zəngəzurun qayaüstü rəsmlərindəki bəzi keçi və qoçların buynuzları eynilə spiral formasında təşkil edilmişdir. Belə bir fakt S. H. Aşurovun fikirlərini təsdiq edir. Lakin, ilan təsvirlərinin də spirallar təşkil etməsi faktı məlumdur. Məsələn, Amerikanın ən qədim sakinlərindən olan mayalılar sitayiş etdikləri allahlardan birinin gözlərini spiral formasında qıvrılmış qoşa ilan şəklində təsvir edirdilər (4, 280). Bu fikir də qədim dövrlərdən ilanın totem olduğunu bir daha təsdiqləyir.

Tədqiqatçıların fikirlərini və əldə olunan materialları nəzərdən keçirdikdən sonra spiralvari təsvirlər haqqında belə bir nəticəyə gəlmək olar ki, bu rəmzi təsvirlər ilanın və ya hər hansı bir buynuzlu heyvanın rəmzi ifadəsidir. Eyni zamanda, onlardan təqvim kimi və ya başqa məqsədlərlə istifadə olunmuşdur. Konkret olaraq, Gəmiqaya abidəsindən məlum olan spirallara gəldikdə isə onların məhz, ilan təsvirindən yaranması heç şübhə doğurmur. Bu spirallardan ayrılan əyri xətlərin ilan başı formasında tamamlanması və rəsmin aşağı hissəsində ilanın real təsviri bir daha bunu sübut edir. Bütövlükdə, vahid kompozisiya təşkil edən bu təsvir totemizmlə, daha dəqiq desək, ilana stayişlə bağlı olaraq meydana çıxmışdır. E. ə. III – II minilliklərdə Azərbaycanın qərb ərazilərində bir totem kimi ilana sitayiş daha geniş yayılmışdır. Gəmiqaya abidəsində həmin dövrdə daha çox ilan təsvirlərinin meydana çıxması da məhz belə bir inamla bağlı olmuşdur.

Beləliklə, ibtidai dövrdə bir qrup heyvanların totemləşdirilməsi həmin dövr incəsənətində onların təsvirlərinin yaranmasına səbəb olmuşdur. Bu təsvirlərin incəsənətdə rəmz kimi çıxış etməsi də şübhəsiz ki, onların inanclarını, görüşünü, semantik xüsusiyyətlərini əks etdirir.

Bundan belə bir nəticəyə gəlmək olar ki, ibtidai dövr insanları ən çox etiqad və sitayiş etdikləri, inandıqları müxtəlif səma cisimləri və totemlər olmuşdur. Araşdırmalardan aydın olur ki, onların inanclarının nəticəsində yaranmış ibtidai incəsənətdə də bu açıq şəkildə nəzərə çarpır. Bu rəmzlərin və onların semantikasının araşdırılması ibtidai dövr insanlarının dünyagörüşünün çox çalarlığını əks etdirir. İbtidai rəmzlərin araşdırılması, eyni zamanda həmin dövr insanları haqqında müəyyən biliklər də əldə etməyə imkan verir. Məlum olur ki, ibtidai din formaları bu dövr insanlarının mənəvi həyatında mühüm rol oynamışdır. Rəmzlərin tədqiqi sübut edir ki, onlar ibtidai sakinlərin həyat tərzi, inancları ilə bağlı olaraq meydana çıxmışdır.

Hər bir türk mənşəli xalqa aid rəmz, simvolik obraz onun keçmişindən yaranıb bəhrələnmişdir. Tarixi çox uzaq keçmişlə bağlı olan Azərbaycan ərazisində bu gündə rast gəlinən bir qrup təsvirlər buna sübutdur. Qeyd etməliyik ki, bir sıra tədqiqatçılar rəmzlərin, simvolik obrazların yaranması, onların inkişafı və s. haqqında müxtəlif fikirlər söyləmişlər. Lakin, bir faktı daima diqqət mərkəzində saxlamaq lazımdır ki, qədim dövrlərdə Azərbaycan ərazisində yaşamış insanlar öz həyatlarından bəzi epizodları real rəsmlər, rəmzi işarələr və s. vasitəsilə təsvir etmişlər. Qədim dövrlərdə Qafqazda yaşamış tayfalar və xalqlar arasında böyük əlaqələr mövcud olmuşdur. Buna görə də, bu tayfaların və xalqların yaşayış tərzlərində, dünyagörüşlərində uyğunluqlar vardır. Bu səbəbdən, Azərbaycan incənətində mövcud olan simvolik obrazlara Qafqaz xalqlarının, türksoylu xalqların incəsənətində də rast gəlinir. Belə təsvirlərə diqqət yetirdikdə, həqiqətən də onların müxtəlif inanclarla bağlı olaraq yarandığını və müxtəlif semantik mənalara malik olduğunu müşahidə edirik. Bu cür rəmzi təsvirlərə qədim dövr incəsənətində də mövcud olan üçbucaq, dördbucaq, xaç, romb, qarmaqlı və s. bu kimi təsvirlər daxildir.

"Romb" təsvirinin yaranma dövrü əkinçiliyin yarandığı neolit dövrünə təsadüf edir. "Romb" təsvirinin ilk nümunələrinə biz tunc dövrünün keramikasında rast gəlirik. Kültəpədən tapılmış rəngli gil qabın hissəsi üzərindəki müxtəlif formalı bəzək elementi kimi verilmiş "romb" təsvirlərini buna nümunə göstərə bilərik. Bu qabın üzərindəki romb naxışı burada tək, böyük ölçüdə təsvir olaraq əsas – aparıcı, digər tərəfdən isə şaquli xətlərin – "su" ların arasında ardıcıl, bir – birinə birləşik yerləşdirilərək naxış elementi kimi təsvir olunmuşdur. Bu növ "romb" naxışına Cənubi Azərbaycanın İsmailabad yaşayış məntəqəsindən tapılmış bu dövrə aid, ağzı geniş formalı gil qabın üzərində də rast gəlirik. Bu qabın üzərindəki "romb" naxışları qabın yuxarı hissəsində üfüqi istiqamətdə, "su" ların içərisində yerləşdirilmişdir. Burada "romb" naxışları öz rəmzi mənasını saxlamaqla bərabər, həm də qoruyucu motiv kimi çıxış edir.

Qədim dövrlərdə romb təsvirlərinə Xanlardakı 5/12 № – li kurqandan, Kilikdağdakı 79 № – li kurqandan, Laləlidəki 13, 15, 16, 18 və bir sıra bu kimi başqa kurqanlardan tapılmış saxsı qabların üzərində rast gəlinir. Dekorativ romb motivlərinə Mərlikdən tapılmış qədim dövrə aid olan qabın üzərində də rast gəlinir.

Qədim dövrün romb təsvirinin ilkin formalarına arxeoloji qazıntılar zamanı Gədəbəyin Pirzamanlı bölgəsindən tapılmış gil qabın üzərində də rast gəlirik. Bu qabın yuxarı hissəsində yerləşdirilmiş "romb" sadə xətlərlə torşəkilli təsvir olunmuşdur.

Romb motivlərinə arxeoloji qazıntılar zamanı Cənubi Azərbaycanın Mərlik yaşayış məntəqəsindən tapılmış qədim dövrə aid olan rəngli şüşə camın üzərində də təsadüf olunur. Bu dövrün dekorativ sənətini özündə əks etdirən camın üzərində səkkiz ləçəkli gülə oxşar romb elementləri "şəbəkə" prinsipi ilə yerləşdirilərək "Bəndi – rumi" kompozisiyası əmələ gətirmişdir. Burada romb motivlərinin əmələ gətirdiyi bu kompozisiya qırmızı rəngli yerlikdən və ağ rəngli şəbəkəvari birləşmiş paxlavalardan ibarətdir. Bütövlükdə, qabın bəzək kompozisiyanı yaradan romb motivlərinin həmin dövrün nəfis tətibatlı nümunələrindən biridir desək yanılmalırıq.

Romb motivlərinin əmələ gətirdiyi "Bəndi – rumi" formalı kompozisiya Alban mədəniyyətində də özünəməxsus şəkildə təsvir olunmuşdur. İlkin dövrlərdən geniş yayılmış bu cür kompozisiyalı naxış formalarına biz bu dövrün bəzək əşyalarında rast gəlirik. Buna misal olaraq, Bakıda və Yaloylutəpədə aparılmış arxeoloji qazıntılar zamanı tapılmış sırğaları nümunə göstərmək olar. Azərbaycan Tarix Muzeyində saxlanılan (inv. № KP7237; № 1815) bu dekorativ bəzək əşyalarındakı şəbəkə formaları üçbucaqlı – torşəkilli və dairəvi konstruksiya içərisində daha incə şəkildə işlənmişdir.

Rombun ilahi mənasına gəldikdə isə, romb yarandığı dövrlərdən bolluq, bərəkət, artım rəmzi hesab olunur və romb təsvirləri həmişə məhsuldarlığı ifadə etmişdir. Qədim dövrdə semantik xüsusiyyətə malik olan üçbucaq təsvirlərinə də tez – tez rast gəlinir. Bu dövrün dekorativ sənətində üçbucaq motivlətinin özünəməxsus yeri var. Neolit – eneolit dövründən simvol kimi mövcud olan üçbucaqlar bu dövrdə dekorativ bəzək kimi təsvir olunmaqla yanaşı, həm də üçbucaq dəliklər formasında da çıxış etmişlər. Bu cür dəlikli üçbucaq dekoruna Çovdardan tapılmış bürüncdən hazırlanmış quş fiqurunun üzərində rast gəlirik.

Həftəvan – təpədən tapılmış tunc dövrünə aid olan gildən hazırlanmış başqa bir qabın üzərində də bü cür üçbucaq təsvirinə rast gəlinir. Arxeoloqlar tərəfindən aşkarlanmış bu rəngli saxsı qabın üzərində üçbucaq təsvirləri rənglər vasitəsilə iç – içə, kənarları haşiyələnmiş, içərisi rombların şəbəkəvari düzülüşü ilə doldurulmuş və s. müxtəlif variantlarda təsvir olunmuşdur.

**Nəticə**

Xüsusilə, polixrom şirli qablar yüksək bədiiliyi ilə seçilirdilər. Onların bədii işləmələrində şəffaf və tutqun şirlərin, açıq və tünd, soyuq və isti rənglərin uğurlu ahəngi, mürəkkəb həndəsi, stilizə olunmuş nəbati və epiqrafik naxışların vəhdəti dulusçu rəssamların incə zövqünü, yüksək peşəkarlığını nümayiş etdirir.

Cox qədim zamanlardan başlayaraq Azərbaycanda öz inkişaf xəttini başlayan keramika sənətində ənənəvi üslub meydana gəlmişdir. Bu həm forma, həm də bəzək elementlərində özünü aydın şəkildə göstərməkdədir. Bunlarla yanaşı xalqın dini inanaclarını əks etdirən svastika, həyat məişətini tərənnüm edən heyvan və bitki təsvirləri, sühetli təsvirlər, ənənələri əks etdirən digər müxtəlif təsvirlərin keramikada geniş yer alması həmin dövr haqında da yüksək əhəmiyyətə malik olması ilə nəzəri cəlb edir.

## ƏDƏBİYYAT

1. Aşurov, S.H. Naxçıvanın ilk tunc dövrü keramikası. Bakı: Nafta-Press, 2002, 158 s.
2. Babayev, İ.A. Qəbələnin ilk şirli qabları // AMM. V c., Bakı: 1964.
3. Baxşəliyev, V.B . Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.

4. Bəşirov R.Y., Hüseynli N.N. Orta əsr Şəmkir şəhərinin qırmızı boyalı küplərinə dair // “Şəmkir: arxeoloji irsi, tarixi və memarlığı” I Respublika elmi-praktik konfransının tezisləri. Şəmkir: 2007.
5. Cəbiyev, Q.C. Azərbaycan keramikası (XIV-XVII əsrlər). Bakı: 2003
6. Əliyev, V.H. Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 140 s.

***** Azərbaycan Rəssamlıq Akademiyasının**
**“Bədii keramika, şüşə və metal” kafedrasının dosenti,**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**E-mail: Imran.kerimov.65@mail.ru**

**Imran Karimov**

## SEMANTIC MEANINGS OF ELEMENTS IN ARTISTIC CERAMICS OF AZERBAIJAN

The artistic ceramic art of Azerbaijan has passed a long historical path of development and combines rich aesthetic and cultural values. This type of art, in addition to expressing the daily life and beliefs of people, also influenced the formation of aesthetic ideas of society. During the centuries the decorative motifs of ceramic art have developed and acquired complex structural and aesthetic features.

In primitive times the ceramic products were often associated with faith and symbolism. For example, the pottery vessels with zoomorphic elements reflect the world of animistic and totemistic beliefs of ancient people. The spread of Islam in Azerbaijan gave a new impetus to the spiritual and cultural development of the people. During this period the symbols and ornaments became richer, giving rise to new forms based on both religious beliefs and lifestyle. The ancient symbols of Azerbaijan, especially sacral patterns, served to reflect the original belief systems and mythical thoughts. Traditional styles and stylized floral, geometric patterns are widely used in the artistic ceramics art of Azerbaijan. The glazed pottery, distinguished by the harmony of colors and patterns, presents examples of high craftsmanship. These ceramic samples provide valuable information not only about their aesthetic value, but also about the religious beliefs, lifestyle and social relations of the Azerbaijani people.

**Keywords:** *ceramics, swastika, philosophical, technology, artistic, semantics.*

**Имран Керимов**

## СЕМАНТИЧЕСКИХ ЗНАЧЕНИЯ ЭЛЕМЕНТОВ В ХУДОЖЕСТВЕННОЙ КЕРАМИКЕ АЗЕРБАЙДЖАНА

Художественная керамика Азербайджана прошла долгий исторический путь, обогащая собой множество эстетических и культурных ценностей. Этот вид искусства не только выражает повседневную жизнь и верования людей, но и оказывает влияние на формирование эстетических представлений общества. На протяжении веков декоративные мотивы керамики развивались, приобретая сложную структуру и эстетические особенности. В древние времена керамические изделия часто были связаны с религиозными верованиями и символизмом. Например, керамика с зооморфными элементами отражала анимистические и тотемистические представления древних людей. Распространение ислама в Азербайджане дало новый импульс духовному и культурному развитию народа. В этот период символы и орнаменты значительно обогатились, создавая новые формы, опирающиеся как на религиозные верования, так и на образ жизни. Древние символы Азербайджана, особенно

сакральные узоры, служили отражением первичных религиозных систем и мифологических представлений. В художественной керамике Азербайджана широко распространены традиционные стили и стилизованные растительные и геометрические орнаменты. Глазурованные глиняные сосуды, с их гармонией цветов и орнаментов, представляют собой образцы высокого мастерства. Эти керамические изделия не только обладают эстетической ценностью, но и дают ценную информацию о религиозных верованиях, образе жизни и социальных отношениях народа Азербайджана.

**Ключевые слова**: *Керамика, свастика, философия, технология, искусство, семантика.*

*AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 22.07.2025**
**Son daxilolma tarixi:17.08.2025**